# «Azərbaycan Olimpiadada— Olimpiada Azərbaycanda»

Yaxın günlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə "Region Gənclərinin İnkişafına Töhfə" İctimai Birliyinin təşkilatçılığı ilə "Azərbaycan Olimpiadada—Olimpiada Azərbaycanda" adlı regional layihənin təqdimat mərasimi oldu. Layihə Zərdab, Göyçay, İsmayıllı, Qəbələ və Şəki şəhərlərində ardıcıl olaraq icra edilir və maarifləndirmə xarakteri daşıyır.



Tədbiri rayon gənclər və idman idarəsinin rəisi Fəxri



Soltanov açaraq iştirakçıları salamladı və tədbirin məqsədinin ilk dəfə Azərbaycanda keçiriləcək Avropa Oyunlarının əhəmiyyətini regionlarda gənclərə təbliğ etmək, gənclərimizi beynəlxalq tədbirin ölkəmizə verəcəyi faydalar barəsində məlumatlandırmaq və Azərbaycanın olimpiya tarixi və cənab Prezidentimiz İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçildiyi gündən bü günkü günədək ölkə idmanın keçdiyi uğurlu inkişaf yollarını gənclərə çatdırmaqdan ibarət olduğunu bildirdi.

Layihə adından göründüyü kimi, Olimpiadanın tarixindən və Azərbaycanın Olimpiadaya qatılma tarixlərindən bəhs edir. Layihənin əsas məqsədi tarixdə ilk dəfə keçiriləcək Avropa Oyunlarının Azərbaycan üçün beynəlxalq əhəmiyyətinin vacibliyini ətraflı şəkildə iştirakçıların nəzərinə çatdırmaqdan ibarətdir.

Layihə çərçivəsində iştirakçılara bukletlər, köynək və papaqlar təqdim edildi. Tədbirdə 100-dək fəal gənc iştirak etmişdir. Xüsusi hazırlanmış foto slayt vasitəsi ilə "Bakı—2015" Avropa Oyunları barədə ətraflı məlumatlar verildi və gəncləri maraqlandıran digər suallar da cavablandırıldı.

**Elçin OSMANOV, rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Fotolar S. Umuyevindir.**

# Azərbaycanda dini tolerantlıq: Tarixi ənənə və müasirlik

XX əsrin sonunu əsasən sosialist düşərgəsinin süqutu nəticəsində dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi ilə səciyyələndirmək olar. Bu dövrdə iqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, əxlaqi-etik dəyərlərə lazımi diqqət yetirilməməsi nəticəsində mənəviyyat problemləri də kəskinləşmişdir. Bundan başqa, dünya dinləri arasında mövcud fərqlərə əsaslanan "sivilizasiyaların toqquşması" nəzəriyyəsi meydana çıxmış və öz tərəfdarlarını tapmışdır. Bəzi separatçı qruplaşmalar bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədilə dini amildən istifadə edirdilər. Bəşər sivilizasiyası dövründə müxtəlif mədəniyyətlərin və dinlərin qorunması üçün onlar arasında dialoqun yaradılmasına böyük ehtiyac vardır.

Sovet ittifaqının dağılması ilə regionda dini dözümlülük ənənələri üçün əsl sınaq mərhələsi başlanmışdır. Baş verən proseslər nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı əsl dini etiqad azadlığı da əldə etdilər.

Azərbaycan çox konfessiyalı bir ölkədir və burada tarixən müxtəlif dini və mədəni abidələr mövcud olmuşdur. Dövlətin bu sahədə yürütdüyü mütərəqqi siyasət nəticəsində hazırda çoxmillətli azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük—dini tolerantlıq özünü yüksək səviyyədə göstərir. Azərbaycan müxtəlif millətlərə və dinlərə məxsus insanların birgə və mehriban yaşadığı bir ölkə, şərqlə qərb, qərblə islam dünyası arasında bir körpü olmaqla mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verir. Təsadüfi deyildir ki, son illərdə ölkəmizdə dini tolerantlıq mövzusunda bir sıra beynəlxalq tədbirlər həyata keçirilmişdir.

Tolerantlıq insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır.

Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir.

Müasir dövlət və din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda bu münasibətlər daha da yaxşılaşmışdır.

Müstəqillik dövründə respublika ərazisində 2 minə yaxın məscid tikilib, son 10 il ərzində 80 məscid əsaslı təmir edilib. Hazırda ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında məhz Bakı şəhərində açılıb.

Bütün bunlar isə bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.

Qeyd etmək lazımdır ki, ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemlərinə maraq göstərir.

Dözümlülük ənənələrinin qorunub saxlanılmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz böyük töhfəsini verir. Dini icmaların başçıları arasında tam anlaşma və daha sıx əlaqələrin yaranması məqsədilə adı çəkilən idarənin rəhbərliyi mütəmadi olaraq onların iştirakı ilə görüş və seminarlar keçirir.

Azərbaycan çox mürəkkəb bir coğrafi məkanda yerləşir. Ölkəmizin ətrafında və daxilində digər dinlərin daşıyıcısı olan xeyli sayda millətlər yaşayır. Azərbaycanda bütün dinlərə və digər millətlərə mənsub olan toplumlara tarixən tolerant münasibət bəslənilir. Bu münasibət, şübhəsiz, inzibati metodlar hesabına formalaşdırılmayıb və formalaşdırılması da mümkün deyil. Çünki tolerantlıq müxtəlif fərdlərin inanclarında ziddiyət olsa belə hər kəsin başqasının inancına və fikrinə hörmətlə, dözümlə yanaşmaqdır. Bu isə Azərbaycanın milli-mədəni, mənəvi dəyərləri, tarixi ənənələri və bütövlükdə türk millətinin xarakteri ilə bağlı olan məsələdir.

Bu gün Avropanın bir çox ölkələrində milli və dini zəmində münaqişələr baş verməkdədir. Xüsusilə Avropada islam dininə və onun daşıyıcılarına qarşı arzuolunmaz münasibət - islamofobiya müşahidə olunmaqdadır. Avropada yaşayan mühacirlərə heç də xoş münasibət bəslənilmir, onlar ya ən ağır işlərə cəlb olunur, ya da deportasiya edilirlər. Azərbaycanda isə əcnəbilərə münasibət tamamilə fərqlidir.

**(Ardı 6-cı səhifədə).**

# Nitq mədəniyyətinin Azərbaycan dilinin təbliğində rolu

Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə "Gənclərin Mədəni İnkişafına Dəstək" İctimai Birliyi tərəfindən "Nitq mədəniyyətinin Azərbaycan dilinin təbliğatında rolu—yarışma" adlı layihənin növbəti sonuncu mərhələsi keçirildi. Tədbiri giriş sözü ilə açan Qəbələ Regional QHT -lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov iştirakçıları salamladıqdan sonra təlim haqqında məlumat verdi və sözü Gənclərin Mədəni İnkişafına Dəstək İctimai Birliyinin sədri Cavid Əliyevə verdi.

Cavid Əliyev rəhbərlik etdiyi birliyin fəaliyyəti və layihə haqqında məlumat verdi, təlimin əhəmiyyətini iştirakçıların diqqətinə çatdırdı.

Təlimçi Canoğlan İlyasov natiqlik nədir, natiqliyin tarixi, ənənəvi natiqlik, əyləndirici natiqlik, çağırış xarakterli natiqlik, informasiya xarakterli natiqlik və s. haqqında geniş məlumat verdi.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim edildi.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

# "İnsan alverinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (QAC) rayon bölməsinin təşkilatçılığı ilə Qəbələ şəhər 3 saylı tam orta məktəbdə "İnsan alverinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir. Yuxarı sinif şagirdlərinin iştirak etdiyi maarifləndirmə tədbirində Azərbaycan QAC-nin Miqrasiya İnformasiya Məntəqəsi kimi göstərdiyi xidmətlər haqqında məktəblilərə ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirdə 4 nəfər məktəbli Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüsü kimi qeydə alınmışdır.

Sonda tədbir iştirakçıları üçün insan alverinə qarşı mübarizə tədbirlərinə həsr olunmuş videoçarxlar nümayiş etdirilmişdir.